# Beynəlxalq “Təhsil” turniri başa çatıb





Dekabrın 16-da yunan-Roma və sərbəst güləş üzrə yeniyetmələr (U-17) arasında beynəlxalq “Təhsil” turniri start götürüb.

Bakı İdman Sarayında keçirilən açılış mərasimində rəqqasların Azərbaycan tarixini simvolizə edən nümayişindən sonra medallar uğrunda qarşılaşmalara start verilib.

Elm və Təhsil Nazirliyinin Azərbaycan Güləş Federasiyası ilə birgə təşkil etdiyi yarışın ilk günündə çıxış edən sərbəst güləşçilər mübarizə aparıblar. İlk yarış günündə qalib olanlara medallar təqdim edilib.

Dekabrın 19-da yunan-Roma və sərbəst güləş üzrə yeniyetmələr (U-17) arasında keçirilən beynəlxalq “Təhsil” turnirinə yekun vurulub.

Yerli və əcnəbi hakimlərin idarə etdiyi yarışın ilk iki günündə sərbəst güləş, növbəti iki günündə isə yunan-Roma güləşi üzrə mübarizə baş tutub.

Dünya Güləş Birliyinin (UWW) təqvimində yer alan yarışda Azərbaycanla yanaşı, Qazaxıstan, Tacikistan, Böyük Britaniya, İsrail və Fransadan ümumilikdə 200-dən çox idmançı iştirak edib.

Yarışda Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq-gənclər idman-şahmat məktəblərinin idmançıları 8 çəki dərəcəsində sərbəst güləş üzrə 4 qızıl, 4 gümüş, 5 bürünc, yunan-Roma güləşi üzrə isə 4 qızıl, 4 gümüş, 8 bürünc olmaqla ümumilikdə 29 medal qazanıblar.